

FAİQ QİSMƏTOĞLU
faiq_qismetoglu@box.az

# ÇİÇƏK TAPA BİLMƏDİM...

... Allah-Təala dünyanı yaradanda ona qeyri-adi bir gözəllik də bəxş edib. Və bu gözəllik min il də, milyon il də keçsə, öz təravətini, öz rəngarəngliyini və öz cizgilərini itirməyib. Əksinə, illər və əsrlər keçdikcə, bu gözəllik bir az da böyüyüb, bir az da möhtəşəm olub və bir az da gün işığına bənzəyərək hərarət yaradıb...

... Bütün gözəlliklər qadın varlığı qarşısında acizdir. Və dünyanı yaradan Allah-Təala qadını ona görə yaradıb ki, Yer üzündə günəş kimi işıq saçsın, məhfərindən və yerindən nə oynayıbsa, qaytarıb qoysun onu əvvəlki yerinə...

Düşünürəm ki, dünyanı günəşsiz, havasız, susuz və torpaqsız təsəvvür etmək mümkün olmadığı kimi, bu dünyanı qadınsız da təsəvvür etmək mümkün deyil. O qadın ki, Allaha yaxın olan və Allahın seçdiyi peyğəmbərləri dünyaya gətirib... O qadın ki, insanların qəlbinə və ürəyinə həmişə işıq bəxş edib... O qadın ki, onsuz bir gün, bir saat, bir dəqiqə dünyamız keçinə bilməz... Harda qadın yoxdusa, ora zülmətin və qaranlığın, müsibətin və faciənin içindədir. Qaranlıqdan və zülmətdən qurtarmağın yolu isə günəş kimi üfiqdən boylanan qadın gözəlliyində və qadın məhəbbətindədir.

... Hamının anası olduğu kimi, mənim də anam vardı. Allahın dərgahına qovuşub. Bizim vaxtımızda 8 Mart -Beynəlxaq Qadınlar bayramı belə təntənəli keçmirdi. Və bilmirdik ki, anamıza nə hədiyyə eləyək. Heç anamız da bizdən hədiyyə uman deyildi. Rəhmətlik deyərdi ki, siz məni incitməyin, elə bu, hədiyyədən qiymətlidir. Biz də ipə-sapa yatmayan uşaqlardıq. Hətta həmin günü anamızı incidərdik.

... Böyüdük, məktəb bitirdik, universitet qutardıq, gördük ki, analar nə qədər əzab-əziyyət, çətinlik çəkirmiş. Mənim anam da çox zəhmətkeş olub. Atam varlı kişi olmasına baxmayaraq, anam pambıq alağına da gedib, pambıq da yığıb, ipəkqurdu saxlayıb, barama da becərib, həyət-bacada toyuq-cücə, hinduşqa, mal-qoyun da saxlayıb. Elə bizi də zəhmətkeşliyə rəhmətlik anam öyrətmişdi. Bax, budur qadının və ananın övladlara göstərdiyi yol...

... O yolu düz 64 ildir gəlirəm, nə qədər büdrəsəm də, hələ ki, yıxılmamışam. Həmişə də göydə Allaha, yerdə atama və anama minnətdar olmuşam ki, varlı kişinin övladı olsaq da, bizi harın, ərköyün, özündənrazı böyütməyiblər. Şükürlər olsun ki, bu yolu biz, başımızın üstündəki o işığı görə-görə hələ də addımlayırıq...

... Zəmanənin üzü qara olsun. Ürəyimizdən çox şey keçir. Bax, istəyirəm kömpütərə yazı diqtə edərkən onu qurub-qoşan Gülər xanıma bir hədiyyə verim. Ürəyimdən vallah, elə keçir ki... Bu gözəl qız da məni çox qəşəng başa düşür. Heç bizdən hədiyyə də ummur. Ən yaxşı hədiyyə onu sevindirən və qəlbini işıqlandıran bir şirin sözdür. Qəzetimizin baş redaktorunun birinci müavini, dostum və qardaşım Əbülfət Mədətoğlu və mən hər gün yazımızı yazıb qurtaranda bu gözəl xanıma o şirin sözləri deyirik. Qızım qədər çox istədiyim Gülər xanım da dünya malında gözü olmayan bir insandı. Yazımızı yazır, şirin sözümüzü eşidir, sonra da heç olmasa bir qədər özünü rahat hiss edir. Müqəddəs kitabımızda buyurulub ki, bir qəlbi qırmaq Kəbəni dağıtmaq qədər böyük günahdır.

... Həmişə çalışmışıq ki, belə günaha batmayaq. Bu gün də 8 Martdır. O qədər doğma, əziz, yaxın insanlar var ki... Hamısı da bir-birindən şirin, bir-birindən əziz... Üç bacım var - biri Bəhmənlidə, biri Sumqayıtda, biri də Xırdalandadır. Hələ qızım Horadiz şəhərində cəbhə bölgəsindədir. Nəvəm Sədaqət ad günümdə və bayramlarda zəng edib deyir ki, dədə, bayramın mübarək! Eşitmişəm bir az xəstələnmisən, bizə niyə deməmisən? Mən də bal kimi şirin-şəkər nəvəmi bal kimi şirin sözlərlə sevindirirəm. Hələ 37 il ailə qurduğum və mənə ən çətin gündə arxa duran xanımımı demirəm. Allaha and olsun, heç vaxt o, məndən hədiyyə istəməyib. Mən də o günə qalmamışam ki, bayram günündə nəsə ona balaca da olsa bir hədiyyə verməyim. Amma o deyib ki, ən böyük hədiyyə sənin can sağlığındır. Həmişə evində-eşiyində canın sağ, babalarının yanında olasan, bu mənim üçün əvəzsiz bir varlıqdı...

... Azərbaycan qadını dünyanın bəlkə də ən güclü, ən ağıllı, ən namuslu və ən mərd xanımıdır. Bu xanımlar ən ağır, ən çətin, ən məşəqqətli və ən faciəli günlərdə ailələrinə, həyat yoldaşlarına arxa durublar, söykək olublar. Mən qadın tanıyıram ki, var-dövləti olan əri hər şeyi itirib və həmin adam intihar etmək istəyib, qadını o kişini intihardan çəkindirib və həyata qaytarıb. Deyib ki, necə olur Allah hər şeyi verəndə yaxşı idi, alanda pis?! Bu mürəkkəb durumdan o kişini o ağıllı qadın çıxarıb. Və sonradan da o kişi ayağa qalxıb, yenidən biznesini qurub, əvvəlkindən də imkanlı olub. Və deyib ki, məni ayağa qaldıran göydə Allah, yerdə xanımım oldu! Bax, budur Azərbaycan qadını... bax, budur ailəyə, ərə sədaqət... bax, budur böyük sevgi... Böyük Dostoyevski yazır ki: "Dünyanı gözəllik xilas edəcək". Bəli, o kişini də, o quyunun dibinə düşmüş adamı da ö gözəl qadın, o gözəl xanım qurtarıb. Eşq olsun belə Azərbaycan qadınlarına!..

... Bu sətirləri kömpütərə diqtə edəndə pəncərədən bayıra baxdım, yaz havasını hiss elədim. Günəş çıxmışdı və hər tərəfə öz sevgisini, hərarətini səpələmişdi... Günəş çıxmışdı və insanların üz-gözündə bir işıq vardı... Günəş çıxmışdı, elə bil deyirdi ki, sən mənim bacımsan, Azərbaycan qadını! İşığım və nurum səni qorusun!..

Böyük bəstəkar və böyük müğənni Polad Bülbüloğlu sözləri Fikrət Qocaya məxsus olan gözəl bir mahnı ifa edir: "Çiçək tapa bilmədim...". Mənsə bütün gül mağazalarında o qədər gül, o qədər çiçək gördüm ki, baxmaqdan gözlərim yoruldu. Bir dəstəsini də xanımıma aldım. Bir gülə baxdım, bir də 37 il mənim nazımla oynayan o xanımın keçdiyi yola. Gördüm ki, bizim xanımlar və eləcə də mənim xanımım güldən də, çiçəkdən də gözəldi. O qədər gözəldi ki, onların bir gülüşü bizim bütün ağrı-acımızı, dərdimizi, kədərimizi, əzabımızı unutdurur. Elə yazımı da o məşhur mahnının aşağıdakı misralarıyla bitirirəm:

Siz çiçəkdən çoxsunuz,
Çiçəkdən gözəlsiniz,
Ay yurdumun qızları,
Közərən ulduzları,
Sizin saçlarınıza,
Düzərəm ulduzları...